# I Avropa Oyunlarının Bakıda keçirilməsinin ölkəmiz üçün əhəmiyyəti

## Azərbaycanın bu möhtəşəm tədbirə ev sahibliyi etməsi onun beynəlxalq aləmdə ictimai-siyasi və mədəni-humanitar nüfuzunu daha da artıracaq

**Aprelin 26-da ölkəmizin və xalqımızın həyatında xüsusi əhəmiyyəti olan bir hadisə baş verdi: I Avropa Oyunlarının məşəli alovlandırıldı. Ölkə paytaxtından başlayaraq bölgələri dolaşan məşəl vətəndaşların sevinci, alqışları ilə qarşılanır. Hər kəsin qəlbi qürur hissi ilə doludur və hər bir ölkə vətəndaşı bu nəhəng tədbiri səbirsizliklə gözləyir. Tarixdə ilk dəfə keçiriləcək I Avropa Oyunlarına Azərbaycanın ev sahibliyi edəcəyi günə lap az qalır. Hər ötən gün bizi bu möhtəşəm yarışlara yaxınlaşdırır.**

Baku 2015
1st EUROPEAN GAMES

Oyunlar Avropanın 50 Milli Olimpiya Komitəsini birləşdirən Beynəlxalq Olimpiya Təşkilatı tərəfindən keçirilir. Bu möhtəşəm idman yarışmasında 50 ölkədən 20 idman növü üzrə 6 mindən çox idmançının yarışacağı gözlənilir. Bildiyimiz kimi, ilk Avropa Oyunlarının keçirilməsi haqqında qərar 2012-ci il dekabrın 8-də Avropa Olimpiya Komitələrinin 41-ci Baş Assambleyasında verilib. 49 Milli Olimpiya Komitəsinin iştirak etdiyi Baş Assambleya iştirakçıları arasında keçirilmiş gizli səsvermə nəticəsində 48 səsdən 38 səs ilə ilk Avropa Oyunlarının Bakıda keçirilməsi qərarı qəbul edilib. I Avropa Oyunlarında 20 idman növü təmsil olunacaq. Bu yarışmada 253 medal uğrunda mübarizə aparılacaq.

Bu möhtəşəm yarışmaya beynəlxalq maraq kifayət qədər böyükdür. Belə ki, Azərbaycan Avropanın tarixində ilk dəfə keçiriləcək bu yarışmanı Yay Olimpiya Oyunları səviyyəsində keçirmək əzmindədir. Bu cür irimiqyaslı yarışların təşkil edilməsi üçün ev sahibliyi edəcək ölkələrə 7 il vaxt verilir. Lakin ölkəmiz belə bir yarışmanın keçirilməsi ilə bağlı bütün hazırlıq işlərini həyata keçirmək üçün 30 aya qədər vaxt sərf edib. Artıq ölkəmiz bu böyük idman tədbirinə ev sahibliyi etməyə demək olar ki, tam hazırdır. İdmanın müxtəlif sahələrində qazanılan uğurlar, ölkə başçısının bu sahəyə yönəltdiyi xüsusi qayğı və diqqət, eyni zamanda, ölkədə gedən sürətli inkişaf belə bir tədbirin məhz Azərbaycanda keçirilməsinə zəmin yaratdı. Bu tədbirin ölkəmiz və xalqımız üçün xüsusi əhəmiyyəti var. Bu tədbir - Azərbaycanın dünya qarşısındakı görüntüləridir. Bütün Avropanın yaxından izləyəcəyi belə bir tədbirə ölkəmizin ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına şərait yaradacaq, ölkəmizin sivil dünyanın ayrılmaz bir hissəsi olaraq bəşəri dəyərlərə sahib olduğunu sübut edəcək. Bu möhtəşəm tədbir Azərbaycanda idmanın, iqtisadiyyatın və turizmin inkişafında öz rolunu oynayacaq, ölkəmizin dünyada tanınmasına, mədəniyyətimizin dünyaya nümayiş olunmasına səbəb olacaq.

I Avropa Oyunlarının Bakıda keçirilməsinə qərar verilməsi təbii ki, Azərbaycanın beynəlxalq nüfuzundan, dünyada formalaşdırdığı müsbət imicdən yaranıb. I Avropa Oyunlarına az vaxt qalmasına baxmayaraq, ölkəmizdə bu böyük tədbirə hazırlıqla bağlı işlər yüksək səviyyədə həyata keçirilir. Azərbaycanın dünya miqyasında geniş təbliğ olunması üçün bu tədbirin böyük əhəmiyyəti var. I Avropa Oyunları milli maraqlarımızın təbliğ edilməsində öz rolunu oynayacaq. Burada iştirak edəcək idmançılar, qonaqlar Azərbaycanla, onun füsunkar gözəlliyi ilə tanış olacaq, respublikamızın inkişaf modelini görəcəklər.

”Bakı-2015” I Avropa Oyunları eyni zamanda, Azərbaycanın iqtisadi qüdrətini və siyasi mənzərəsini dünyaya nümayiş etdirmək baxımından da əhəmiyyətlidir. Bu cür möhtəşəm idman yarışmasına Azərbaycanın ev sahibliyi etməsi onun beynəlxalq aləmdə ictimai-siyasi, mədəni-humanitar nüfuzunu artıracaq. Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və adət-ənənələrə, yüksək tolerantlıq mühitinə və qonaqpərvərliyə malik olmasını dünyaya nümayiş etdirəcək. Yarışların keçirildiyi zaman ərzində ölkəmizə gəlmiş qonaqların xərcləyəcəyi vəsait isə kiçik və orta biznesin, turizmin, xidmət sektorunun inkişafına yönələn növbəti bir addımdır.

Bundan başqa, bu idman yarışmasının Azərbaycan üçün informasiya mübarizəsi məsələsində də əhəmiyyəti var. Belə bir möhtəşəm hadisədən sonra ölkənin sağlam tərəfdaşlarının sayının çoxalacağı şübhəsizdir. Oyunlar həm də Azərbaycan regionlarının təbliği üçün əlverişli imkanlar açır. Paytaxta yanaşı, ölkənin digər iri şəhərlərinin də dünyaya tanıdılması ilə Azərbaycanın turizm və iqtisadi potensialı dünyaya nümayiş etdiriləcək.

**Bu cür irimiqyaslı yarışların təşkil edilməsi üçün ev sahibliyi edəcək ölkələrə 7 il vaxt verilir. Lakin ölkəmiz belə bir yarışmanın keçirilməsi ilə bağlı bütün hazırlıq işlərini həyata keçirmək üçün 30 aya qədər vaxt sərf edib. Artıq ölkəmiz bu böyük idman tədbirinə ev sahibliyi etməyə demək olar ki, tam hazırdır. İdmanın müxtəlif sahələrində qazanılan uğurlar, ölkə başçısının bu sahəyə yönəltdiyi xüsusi qayğı və diqqət, eyni zamanda, ölkədə gedən sürətli inkişaf belə bir tədbirin məhz Azərbaycanda keçirilməsinə zəmin yaratdı. Bu tədbirin ölkəmiz və xalqımız üçün xüsusi əhəmiyyəti var.**

Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ölkəni inkişaf etmiş Avropa ölkələri sırasına aparan yoldur. Beləliklə, tarixdə ilk dəfə keçiriləcək ”Bakı-2015” I Avropa Oyunları ilə Azərbaycan bütün dünya üçün nümunəvi və əhəmiyyətli təcrübə və böyük irs qoymuş olacaq. Bununla yanaşı, tarixi mədəniyyətimizin dünyaya nümayiş olunmasına, ölkəmizin böyük təcrübə qazanmasına və digər bir çox əhəmiyyətli sahələrin inkişafına nail olmağa zəmin yaranacaq. Azərbaycanda yeni idman qurğuları inşa olundu, bir çoxunda isə yenidənqurma-bərpa işləri aparıldı. Bakı Olimpiya Stadionu, *Milli Gimnastika Arenası, Voterpol Arenası*, Dağ Velosipedi Parkı, Bakı Atıcılıq Mərkəzi, Bakı Kristal Zalı, Heydər Əliyev adına İdman-Konsert Kompleksi, Tofiq Bəhramov adına Respublika Stadionu və digər idman obyektləri bütün dünyanın diqqət mərkəzinə düşdü. Bu idman infrastrukturu Oyunlardan sonra da ölkəmiz üçün qalacaq və bütün bu işlərin yalnız Azərbaycan xalqının rifahına xidmət etməsi göz önündədir.

Ölkədə keçiriləcək bu tədbir yalnız bir idman yarışması deyil, həm də bir mədəniyyət olaraq insanların və ölkənin həyatında xüsusi rol oynaması baxımından da əhəmiyyətlidir. **Yazıçı-kulturoloq Aydın Xan Əbilovun** sözlərinə görə, I Avropa Oyunları sözsüz ki, qlobal miqyasda keçirilən həm idman, həm də bir mədəniyyət hadisəsidir. Belə ki, bu tədbir dünyanın bir çox ölkələrinin maraqlarını Azərbaycana cəlb edə bilib: ”Artıq bir ildən çoxdur ki, bu tədbirlə bağlı dünyanın bir çox kütləvi informasiya vasitələrində - istər elektron, istərsə də yazılı mətbuatda, eyni zamanda, internet sayt və xəbər portallarında ölkəmiz və onun keçdiyi tarixi dövr, Azərbaycanın idmanı, ictimai-siyasi hadisələri ilə bağlı müxtəlif materiallar gedir. Əslində, bu, Azərbaycan həqiqətlərini, mədəniyyətini, sivilizasiyasını, ümumiyyətlə, müstəqil tariximizi və müasir dövrümüzü təbliğ etmək üçün çox böyük imkanlar yaradan bir hadisədir”.

Aydın Xan qeyd etdi ki, bir çox ölkələr, o cümlədən Avropa ölkələri bu hadisəyə daha çox idman yarışması kimi baxa bilərlər. Amma Azərbaycan özünün ciddi hazırlaşdığı bu tədbirlə daha çox öz mədəniyyətini, prioritet və kulturoloji sərvətlərini dünyaya ixrac etməkdə maraqlıdır. Həm paytaxt Bakıda, həm də ölkəmizin müxtəlif bölgələrində yeni idman obyektlərinin salınması, infrastruktur yeniləşmələrinin aparılması, tarixi abidələrimizin, binalarımızın təmir olunması onu deməyə əsas verir ki, Azərbaycan bu tədbirə çox ciddi hazırlaşır: ”Məndə olan məlumata görə, bu idman oyunları zamanı çox geniş mədəniyyət proqramı hazırlanıb. İstər gələn idmançılar, istərsə də onların məşqçiləri üçün və xüsusən də kütləvi informasiya vasitələri və dünyanın müxtəlif ölkələrindən gələn ictimai-siyasi dövlət xadimləri üçün xüsusi əhəmiyyəti olacaq maraqlı tədbirlər planının həyata keçirilməsi nəzərdə tutulub. Bu kimi tədbirlər həm musiqimizi, həm də Azərbaycan incəsənətinin digər növlərini nümayiş etdirəcək, eyni zamanda, tariximizi özündə əks etdirən müxtəlif ədəbi-mədəni və kulturoloji tədbirlərdən ibarət olacaq”.

Aydın Xan xüsusi olaraq qeyd etdi ki, hazırda Azərbaycan mədəniyyəti özünün növbəti, daha qlobal bir mərhələsinə daxil olur. Burada mədəniyyət sözünün məna tutumu çox genişdir. Bu sahədə görülən işlər Azərbaycanın dövlətçiliyini, onun ictimai-siyasi mədəniyyətini, etikasını, estetikasını, mətbəxini, ümumiyyətlə, ictimai davranışdan tutmuş əxlaq normalarına qədər bütün detalları dünyaya tanıtmağa hesablanıb. Əlbəttə, belə qlobal tədbirlərin ölkəmizdə keçirilməsinin turizmin inkişafında müsbət addımların atılmasında, Azərbaycanı dünyaya tanıtmaqda xüsusi əhəmiyyəti var. Belə ki, Azərbaycan mədəniyyətinin daha fərqli formada tanıdılması vacibdir. Müsahibim onu da bildirdi ki, indiyə qədər bizə daha çox Şərq ölkəsi kimi baxırdılar. Şərqdə isə ancaq konfliktlər, müharibələr dünyanın diqqətini cəlb edib: ”Bizdə də Qarabağ problemi var, bu tədbir Azərbaycan həqiqətlərinin dünyaya çatdırması məsələsində də bizim üçün növbəti bir imkan ola bilər. Bu cür tədbirlərin mütəmadi olaraq keçirilməsi həm də dünyanın Azərbaycana olan münasibətinin get-gedə dəyişməsinə də səbəb olur. YUNESKO, BMT və digər ictimai təşkilatların, qurumların, cəmiyyətlərin Azərbaycanla bağlı həqiqətləri dəstəklədiyinin şahidi oluruq. I Avropa Oyunları bu baxımdan da möhtəşəm bir hadisədir. Bir vaxtlar ölkəmizin informasiya blokadasına alınmasından şikayətlənirdik. Hal-hazırda isə bu blokada dağıdılıb. Şərait yaradılıb ki, Azərbaycanın həqiqətlərini dünyaya çatdıra bilək”.

**Yazıçı-dramaturq Əli Əmirli** də belə bir möhtəşəm tədbirin keçirilməsinin ilk növbədə ölkənin tanıdılması baxımından çox vacib olduğunu dedi. ”Azərbaycan haqda müəyyən, bizi sevməyən qüvvələrin yaratdığı mənfi imici, mifi dağıtmaq lazımdır. Mənə elə gəlir ki, bu işdə Avropa Oyunlarının çox böyük yardımı və köməyi olacaq. Bəzən biz düşmənin təbliğatına aludə olaraq, ona əkstəbliğatla cavab verməyə çalışırıq. Əlbəttə, bu, lazımdır. Amma eyni zamanda, iş görmək də lazımdır. Məhz gördüyün işlə özünü tanıtmalısan, dünya xalqları yaxşı əməllərini görməlidir. Gördüyün işlə dünya ölkələri arasında mədəni, sülhsevər xalq olduğunu sübut eləməlisən. Bunun da ən gözəl yolu mədəniyyət forumları, mədəniyyət tədbirləri və şübhəsiz ki, daha çox kütləvi olan idman oyunları, idman tədbirləridir. I Avropa Oyunları da məhz buna xidmət edəcək. Burada ölkənin imicinin formalaşdırılmasında bir cəsarət məsələsi də var. Belə möhtəşəm bir tədbirə ev sahibliyi etmək, bu tədbiri keçirməyi bacarmaq, bu cür məsuliyyəti üzərinə götürmək asan iş deyil və bu da öz növbəsində ölkə haqqında müsbət fikirlər formalaşdırır. Deməli, ölkənin özünə inamı, iqdisadi qüdrəti, gücü var! Hesab edirəm ki, I Avropa Oyunları dünya tarixinə, idman tarixinə, mədəniyyət tarixinə düşəcək bir hadisə olacaq.”

Fikirlərimi ölkə Prezidentinin çıxışlarının birindən götürdüyüm bir fikir ilə tamamlamaq istərdim: ”Hər bir insan, xüsusilə, hər bir gənc mütləq idmanla məşğul olmalıdır. Lap idmançı olmasa belə, idmanla məşğul olmaq insana həm fiziki, həm mənəvi güc və əminlik verir. İdman mədəniyyətdir”.

**Zeynəb Əliqızı**

**Yazı Milli Olimpiya Komitəsinin və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün hazırlanıb**